


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 14 (24.151)

*25 yanvar 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Ümumtəhsil məktəblərində *"Zəfər tariximiz"* və *"Şəhidlər unudulmur"* adlı guşələr yaradılacaq




Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman və rəşadətli Ordumuz Ermənistanın yeni işğal planlarının qarşısını almaq, torpaqlarımızı qəsbkarlardan azad etmək məqsədilə 2020-ci il sentyabrın 27-dən başladığı və 44 gün ərzində həyata keçirdiyi Zəfər yürüşündə möhtəşəm Tarixi Qələbə qazandı. Azərbaycanın qəhrəman oğulları 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımızı işğaldan azad edərək Azərbaycan xalqına böyük qələbə sevinci yaşatdılar.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən tariximizin ən parlaq səhifəsindən olan bu Tarixi Qələbəni, qəhrəman Ordumuzun Zəfər yolunu və Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda şəhadətə ucalan oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, onların vətənpərvərliklərinin və qəhrəmanlıqlarının təbliği, məktəblilərdə hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə muxtar respublikanın ümumtəhsil məktəblərində "Zəfər tariximiz" və "Şəhidlər unudulmur" adlı guşələrin yaradılması nəzərdə tutulub.

"Zəfər tariximiz" guşəsində Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fotoları, Zəfər Gününün təsis edilməsi haqqında Sərəncam, 44 günlük müharibənin qısa xronikası, Prezidentimizin zəfər tariximizlə bağlı fikirləri və Zəfər Gününü özündə əks etdirən fotoşəkillər yer alacaq.




Muxtar respublikada fəaliyyət göstərən 212 ümumi təhsil müəssisəsinin hər birində "Zəfər tariximiz" guşəsi yaradılacaq.

"Şəhidlər unudulmur" guşəsində isə həmin məktəbdə təhsil almış şəhidlərin fotoşəkilləri, adları, soyadları, hərbi rütbəsi, doğum tarixi və keçdiyi döyüş yolu haqqında məlumatlar yerləşdiriləcək. Muxtar respublikanın 190 ümumtəhsil müəssisəsindən şəhidlik zirvəsinə ucalan məzunlarımız var. Buna görə də 190 məktəbdə "Şəhidlər unudulmur" guşələri yaradılması nəzərdə tutulub.

Qeyd edək ki, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə Naxçıvan Muxtar Respublikasından da 483 igid övladımız şəhidlik zirvəsinə ucalıb. Onlardan 342-si I Qarabağ müharibəsinin, 141-i isə II Qarabağ müharibəsinin şəhidləridir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Ərzaq təhlükəsizliyinin təmin edilməsi cəmiyyətin inkişafının mühüm şərtidir

*Ərzaq təhlükəsizliyi bütün insanların yaşamaq üçün zəruri olan ərzaq məhsullarına iqtisadi çıxışının təmin olunması, sağlamlığın və fəal həyat təminatının qorunub saxlanılması, cəmiyyətin inkişafının əsasıdır. Eyni zamanda əhalinin etibarlı ərzaq təminatı həm də hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərti, dövlətin kompleks təhlükəsizliyinin, o cümlədən iqtisadi təhlükəsizliyinin tərkib hissəsi olmaqla, iqtisadi, xüsusilə aqrar siyasətin əsas hədəfidir. Bu səbəbdən cəmiyyətin hər bir üzvünün əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi vacib şərtlərdən biridir.*

Hazırda dünya iqtisadiyyatında baş verən proseslərin ümumi təhlilindən belə nəticəyə gəlmək olar ki, ərzaq təhlükəsizliyi gündən-günə daha ciddi xarakter daşıyan bir məsələyə çevrilir. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, əgər 1950-1985-ci illərdə ərzaq istehsalının illik artımı 30 milyon ton, 1985-1995-ci illərdə 12 milyon ton təşkil edirdisə, 2030-cu ilədək bu göstərici cəmi 9 milyon ton səviyyəsində olacaq. Qarşıdakı illər ərzində əhali artımı ilə müqayisədə ərzaq istehsalının nisbətən azalması bir daha qida təhlükəsizliyinin təmin olunmasının gələcək illərdə də nə dərəcədə zəruri xarakter daşıyacağını göstərir.





Qeyd etmək lazımdır ki, son iki ildə dünyada tüğyan edən koronavirus pandemiyası dövlətlər qarşısında, ilk növbədə, əhalinin zəruri və sağlam qida məhsulları ilə təminatı problemini qoydu. Belə ki, genişmiqyaslı məhdudiyyətlərin tətbiqi, iqtisadi aktivliyin zəifləməsi, iaşə və turizm sektorlarının fəaliyyətinin minimuma endirilməsi yüksək işsizlik səviyyəsi, gəlir itkiləri və ərzaq istehsalı xərclərinin artması ilə müşayiət olundu. Bu hal isə həm beynəlxalq, həm də lokal səviyyədə qida təchizatı zəncirinin zəifləməsi və bəzi hallarda qırılması kimi ciddi təhlükədən xəbər verirdi. Lakin ölkəmizdə, eləcə də muxtar respublikamızda qabaqcadan dayanıqlı iqtisadi inkişaf və sabitliyə hesablanmış iqtisadi siyasətin nəticəsində pandemiyanın təsirləri nəinki minimuma endirilib, hətta əvvəlki illərlə müqayisədə makroiqtisadi göstəricilərin səviyyəsində artım müşahidə olunub. Təbii ki, bütün bunlar əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında da özünü müsbət mənada göstərib.

Ölkəmizdə əhalinin etibarlı ərzaq təminatı daim dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edib. Belə ki, 2001-ci ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramında deyilirdi: "Ərzaq təhlükəsizliyi insan ləyaqətinin başlıca amili olmaqla, əsas insan hüquqlarından biridir. Ona görə də bu hüququn təmin edilməsi Azərbaycan Respublikası Hökumətinin mühüm vəzifələrindən sayılır".



Bu məqsədyönlü siyasətin davamı olaraq ölkəmizdə həyata keçirilən səmərəli sosial-iqtisadi siyasətin real nəticələridir ki, muxtar respublikada 2016-cı illə müqayisədə 2021-ci ildə ümumi daxili məhsul istehsalı real ifadədə 16,8 faiz, sənaye məhsulu istehsalı 13,4 faiz, əsas kapitala yönəldilmiş vəsaitlər 6,5 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 33,5 faiz, pərakəndə ticarət dövriyyəsi 18,9 faiz artıb.

Sənaye məhsulu istehsalının ildən-ilə artması muxtar respublikanın iqtisadi təhlükəsizliyinin əsas şərtlərindəndir. Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 2022-ci ilin yanvar-noyabr aylarında 1 milyard 26 milyon 196 min 200 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz çoxdur.

Bu gün muxtar respublikada 384 növdə məhsulun istehsalı, həmçinin 350 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi idxaldan asılılığın ciddi şəkildə azaldılmasına səbəb olub. Nəzərə alsaq ki, bunların əksəriyyəti qida məhsullarıdır, əminliklə deyə bilərik ki, əhalinin tələbatının keyfiyyətli məhsullarla ödənilməsinə də şərait yaradıb.

Muxtar respublikada yerli xammala əsaslanan müəssisələrin fəaliyyətinin dəstəklənməsi hər zaman aktual məsələ olub. Çünki ərzaq təhlükəsizliyinin etibarlı təminatında məhz yerli xammalla çalışan qida sənayesi müəssisələrinin rolu böyükdür. Bu istiqamətdə 2021-ci ildə Duzdağda ehtiyatı 15 milyon ton olan yeni şaxtanın istismara verilməsi əhalinin duz məhsuluna olan tələbatının dolğun şəkildə ödənilməsinə şərait yaradıb.

Məlum olduğu kimi, aqrar sahənin inkişafı ərzaq təhlükəsizliyi üçün başlıca amildir. Muxtar respublikamızda bu sahənin inkişafı istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi, ölkə başçısının regionların sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığı Dövlət proqramlarının uğurlu icrası təsərrüfatların müxtəlif sahələr üzrə fəaliyyətini şaxələndirməklə yanaşı, məhsul bolluğuna da zəmin yaradır. Belə ki, muxtar respublikada qapalı suvarma şəbəkələrinin tikintisi, yeni suvarılan sahələrin kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi, məhsul istehsalçılarının mineral gübrə ilə təmin olunması, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikasının güzəştli lizinq şərtləri ilə fermerlərə verilməsi kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara bu sahəni inkişaf etdirmək üçün güclü stimul verər.

Fermerlərin kənd təsərrüfatı məhsullarını uzun müddət saxlamaları və əhalinin ilin soyuq fəsillərində kənd təsərrüfatı məhsullarına olan tələbatını dolğun şəkildə ödəmək məqsədilə əksər rayonlarda iritutumlu soyuducu anbarlar, əhalinin tərəvəz məhsulları ilə fasiləsiz təminatı üçün istixanalar tikilib. Təkcə 2021-ci ildə dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına 6 soyuducu anbarın və 5 istixana təsərrüfatının yaradılması, 3 istixana təsərrüfatının genişləndirilməsi başa çatdırılıb.

Bu gün aqrar sektorda məhsul istehsalının həcmində xüsusi çəkiyə malik olan ailə təsərrüfatları muxtar respublikada əhalinin ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları ilə təminatında, bu sahədə idxaldan asılılığın azalmasında, eləcə də ərzaq təchizatı zəncirində əvəzsiz rola malikdir. Belə ki, bu cür kiçik təsərrüfatlar bazarda baş verən dəyişikliklərə cəld reaksiya verməklə əlavə sabitlik təmin edirlər.

Araşdırmalar göstərir ki, bazar münasibətləri şəraitində ərzaq bazarının formalaşdırılması və məhsulun keyfiyyətinin yüksəldilməsinin mühüm cəhətlərindən biri də bu sistemin idarə olunmasının təkmilləşdirilməsidir.

Muxtar respublikada istehsal olunan məhsulların, eləcə də idxal olunan qida məhsullarının keyfiyyətinin müvafiq standartlara uyğun təhlil olunması sahəsində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Latviya Respublikasının Latviya Milli Akkreditasiya Bürosu Dövlət Agentliyi (LATAK) tərəfindən beynəlxalq akkreditasiyadan keçmiş Mərkəzi Qida Sınaq Laboratoriyası, həmçinin Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin laboratoriyası və Naxçıvan Gömrük Ekspertizası İdarəsi fəaliyyət göstərir.

Bu gün qarşıya qoyulan vəzifələrin icrası istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada davamlı və adekvat ərzaq təklifinin formalaşdırılmasına, istehsal və satış infrastrukturunun genişləndirilməsinə, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsinə və hər bir vətəndaşın ərzaq məhsulları ilə etibarlı təminatına zəmin yaradıb.

**Teymur ABBASOV**
***iqtisad elmləri doktoru, Naxçıvan Dövlət Universitetinin professoru***

## "Naxçıvanbank"ın Naxçıvan şəhər filialı xidmət keyfiyyətini artırıb



"Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti müasir dövrün tələblərinə uyğun olaraq rəqəmsallaşmanı daha da stimullaşdırmaq, həmçinin əhalinin bank xidmətlərindən daha rahat faydalana bilməsi üçün bankomat və ödəmə terminallarını yeniləyərək artırmağa davam edir. Hazırda "Naxçıvanbank" ASC ölkə üzrə 51 bankomat və 99 ödəniş terminalı ilə əhaliyə yüksək səviyyədə xidmət göstərir.

Müştərilərə göstərilən xidmətin daha da yaxşılaşdırılması məqsədilə bankın Naxçıvan şəhər filialı müasir standartlar səviyyəsində əsaslı təmir olunaraq əhalinin istifadəsinə verilib və xidmət keyfiyyəti daha da artıb.

Azərbaycanın digər regionlarında yaşayan əhaliyə də yüksəkkeyfiyyətli bank xidmətlərinin təqdim olunması üçün mühüm layihələr hazırlanır.

**Xəbərlər şöbəsi**

*Ölkə başçısının müvafiq Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasında Nümayəndəlik institutunun yaradılmasından sonra əvvəllər bir sıra sahələrdə mövcud olan çatışmazlıqların aşkara çıxarılaraq aradan qaldırılması üçün tədbirlərin görülməsinə başlanılıb. Diqqət yönəldilən həllivacib məsələlərdən biri də ev təsərrüfatlarının uçotunun aparılması işinin təşkili ilə bağlıdır. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının müəyyən etdiyi istiqamətə uyğun olaraq 28 dekabr 2022-ci il tarixdə Naxçıvanda müşavirə keçirilib, Mərkəzi Qərargah yaradılıb, Tədbirlər Planı təsdiqlənib. Tədbirlər Planına uyğun olaraq yerlərdə icra hakimiyyətləri başçılarının rəhbərliyi ilə 8 yerli qərargah təşkil edilib. 2023-cü il yanvarın 6-da Naxçıvan Muxtar Respublikasında ev təsərrüfatlarının uçotunun aparılması işinin təşkili ilə bağlı keçirilən müşavirədə şəhər, rayon icra hakimiyyətləri qarşısında duran vəzifələr izah olunub, məsul şəxslər təlimatlandırılıblar. Ev təsərrüfatlarının uçotunun aparılmasında hansı dəyişikliklərin nəzərdə tutulduğunu, yeniliklərin əhəmiyyəti, müşavirədə verilən tapşırıqların icrası ilə bağlı və mövzu ilə əlaqədar digər suallarımızı Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədr müavini Müşfiq Əliyevə ünvanladıq.*

# Ev təsərrüfatlarının uçotunun aparılması işi yeni mərhələdə

***– Müşfiq müəllim, öncə istərdik ki, oxucularımıza təsərrüfatbaşına uçot kitabları haqqında qısaca olaraq ümumi məlumat verəsiniz. Ümumiyyətlə, təsərrüfatbaşına uçot kitabı nədir, nə məqsədlə yazılır, əhəmiyyəti nədən ibarətdir?***

– “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən rəsmi statistikanın əsas məqsədi ilkin məlumatların məxfiliyini təmin etməklə ölkədə sosial-iqtisadi vəziyyəti, elmi-texniki inkişafı, ölkə, region və sahə səviyyəsində qarşılıqlı təsərrüfat əlaqələrini, struktur dəyişikliklərini və istehsalın səmərəliliyini səciyyələndirən statistik məlumatlarla idarəetmə orqanlarının və digər iqtisadi subyektlərin ehtiyaclarının ödənilməsindən ibarətdir. Bu istiqamətdə rəsmi statistika hesabatı formalarından biri olan ev təsərrüfatlarının uçotu kitabındakı göstəricilərin ümumi yekunlarından əhalinin milli və sosial mənsubiyyətinin, cins və yaş tərkibinin müəyyən edilməsi, mövcud torpaq sahələrindən istifadə vəziyyətinin öyrənilməsi, təsərrüfata məxsus yaşayış evləri və digər tikililər, heyvanlar, quşlar və arı ailələri haqqında məlumatların əldə edilməsi və digər məqsədlər üçün istifadə olunur.





***– Gəlin bir qədər keçmişə, Azərbaycanda təsərrüfatbaşına uçot sənədlərinin tətbiqinin həyata keçirildiyi ilk vaxtlara nəzər salaq...***

– Məlumat üçün qeyd edim ki, Azərbaycanda təsərrüfatbaşına uçot sənədləri 1934-cü ildən tətbiq olunur və yalnız kənd yaşayış yerləri üçün nəzərdə tutulmuşdur. Məhz həmin sənədlərin tətbiqi ilə kənd təsərrüfatında daimi ilkin uçot təşkil edilmiş, əhalinin təhsili, həyat səviyyəsi, təsərrüfatlar üzrə mal-qaranın, quşların sayı və sair haqqında məlumatlar toplanmağa başlanılmışdır. Uçot sənədlərindən kənd təsərrüfatı statistikasının aparılması ilə yanaşı, eyni zamanda ölkə əhəmiyyətli müxtəlif tədbirlərin, o cümlədən əhalinin siyahıyaalınmasının keçirilməsində, seçici siyahılarının dəqiqləşdirilməsində geniş şəkildə istifadə olunmuşdur.



Sovet dönəmində şəhər yerləri üzrə təsərrüfatbaşına uçot sənədləri tətbiq olunmayıb. Bu sahədə müvafiq məlumatların toplanılması üçün ev kitabçaları tətbiq edilirdi və sahə müvəkkilləri də qeydiyyat məlumatlarının dəqiqləşdirilməsi məqsədilə evlərə baş çəkirdi. Lakin bu, şəhər yerləri üzrə yuxarıda qeyd olunan məqsədlər üçün ətraflı, eyni zamanda davamlı məlumatların əldə edilməsinə imkan vermirdi.

***– Bəs ölkəmizdə bu sahəyə nə vaxtdan lazımi diqqət göstərilməyə başlanılmışdır?***

– Uzun illər istifadə olunmasına baxmayaraq, 90-cı illərdən başlayaraq Azərbaycanda, o cümlədən muxtar respublikada təsərrüfatbaşına uçot sənədlərinin işlənilməsinə lazımi diqqət göstərilməmişdir. 2012-ci ildə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyətləri başçılarının şəhər və qəsəbə inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində ev təsərrüfatlarının uçotu kitabı və onun aparılmasına dair metodoloji göstərişlər hazırlanmış və təsdiq edilmişdir. 2013-cü ildən başlayaraq kənd yerlərində olduğu kimi, şəhər və qəsəbələrdə yaşayan əhali üzrə də ev təsərrüfatlarının uçotu kitabının tətbiqinə başlanılmışdır.

Təsərrüfatbaşına uçot sənədləri ilə bağlı köklü islahatlara 2015-ci ildən başlanılmış, kitaba torpaqların suvarılması və onlardan istifadə, əhalinin ərzaq təhlükəsizliyinin təminatında strateji əhəmiyyəti olan məhsullar, kənd təsərrüfatı texnikası ilə bağlı yeni bölmələrin, mal-qara və quşların bölgüsünə yeni göstəricilər əlavə edilmişdir. Bu isə, öz növbəsində, əvvəllər seçmə statistika müşahidələri əsasında toplanan və müxtəlif metodlarla qiymətləndirilən məlumatların indi bütün təsərrüfatlar üzrə ilkin mənbədən əldə edilməsinə imkan yaratmışdır.

Mövcud qanunvericiliyə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hər 5 ildən bir təsdiq edilən təsərrüfatbaşına kitablar bütün inzibati ərazi dairələrini əhatə edir və kitabdakı göstəricilər hər il yanvar ayının 1-i dəqiqləşdirilir.

Muxtar respublikada 1 yanvar 2016-cı il tarixədək ev təsərrüfatlarının uçotu Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş kitablara uyğun olaraq şəhər və rayon icra hakimiyyətləri başçılarının şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri, həmçinin sahə inzibati ərazi dairələri üzrə nümayəndələri tərəfindən aparılmışdır.

***– Hamımıza məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasında aparılan struktur dəyişikliyindən sonra ilk diqqət yetirilən məsələlərdən biri də məhz təsərrüfatbaşına uçot kitabları ilə bağlı oldu, bu məqsədlə keçirilən müşavirədə həllini gözləyən zəruri məsələlərə də toxunuldu, qarşıda duran vəzifələr izah olundu, məsul şəxslər təlimatlandırıldı. Müşavirədə konkret olaraq qarşıya hansı vəzifələr qoyuldu?***

– İlk olaraq məlumat üçün onu bildirmək istəyirəm ki, 2022-ci ildə Azərbaycan Respublikasında ev təsərrüfatlarının uçota alınması işi yeni formatda aparılsa da, əfsuslar olsun ki, bu tədbir Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən asılı olmayan müəyyən səbəblərdən muxtar respublikada tələb olunan səviyyədə həyata keçirilmədi. Bununla da həm ölkə, həm də muxtar respublika üzrə dolğun məlumatların əldə edilməsi təmin olunmadı. Hazırda həyata keçirilən tədbirin əsas məqsədi ölkəmizin digər ərazilərində 2022-ci ildən başlayaraq görülən işin Naxçıvanda da uğurla başa çatdırılmasına nail olmaqdır.

***– Bildiyimiz kimi, 28 dekabr 2022-ci il tarixdə keçirilən müşavirədə Mərkəzi Qərargah yaradılıb, Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planına uyğun olaraq ötən dövrdə şəhər və rayon icra hakimiyyətləri başçılarının rəhbərliyi ilə 8 yerli qərargah da yaradılıb. Qərargahların fəaliyyəti necə qurulub?***

– Sizin də qeyd etdiyiniz kimi, muxtar respublikada ev təsərrüfatlarına dair daha dolğun məlumat əldə etmək məqsədilə 28 dekabr 2022-ci il tarixdə müşavirə keçirilmiş, Mərkəzi Qərargah yaradılmış, Tədbirlər Planı təsdiq edilmişdir. Tədbirlər Planına uyğun olaraq şəhər və rayon icra hakimiyyətləri başçılarının rəhbərliyi ilə 8 qərargah yaradılmışdır.

Görülən işlərin davamı olaraq cari il yanvar ayının 6-da ev təsərrüfatlarının uçotunun aparılmasına dair geniş müşavirə keçirilmiş, təsərrüfatbaşına uçot kitablarının doldurulması işinin təşkili ilə bağlı şəhər və rayon icra hakimiyyətlərinin qarşısında duran vəzifələr izah olunmuş, məsul şəxslər təlimatlandırılmışdır.

Naxçıvan Muxtar Respublikası üzrə ilkin variantı 2016-cı ildə təsdiq edilmiş “Ev təsərrüfatlarının uçotu kitabı”nda olan göstəricilərlə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təsdiq etdiyi kitab arasında müəyyən fərqlərin aradan qaldırılması məqsədilə yeni kitablar çap olunmuş və statistika idarələrinin rəisləri tərəfindən ev təsərrüfatlarının uçotu kitabının hər birinin axırıncı səhifəsində onun səhifələrinin ümumi sayı göstərilməklə imza edilib möhürlənməsi, akt vasitəsilə digər sənədlərlə birlikdə tələb olunan sayda şəhər, qəsəbə, kənd və sahə inzibati ərazi dairələri üzrə nümayəndələrə təhvil verilməsi təmin olunmuşdur.

Şəhər və rayon icra hakimiyyətlərində yaradılmış qərargahların fəaliyyəti haqqında onu qeyd etmək istəyirəm ki, Dövlət Statistika Komitəsinə yerli qərargahlar tərəfindən hər gün sorğu vərəqələri üzrə uçotu aparılmış ev təsərrüfatlarının, həmçinin sistemə işlənmiş ev təsərrüfatlarının sayı haqqında məlumatlar daxil olur və həmin məlumatlar tərəfimizdən ümumiləşdirilərək aidiyyəti üzrə təqdim edilir.

Ev təsərrüfatlarının uçota alınmasının müəyyən olunmuş vaxt ərzində və keyfiyyətlə yerinə yetirilməsi məqsədilə həyata keçirilən digər tədbirlərlə yanaşı, Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təşkil edilmiş 2 komissiya da şəhər və rayonlarda təsərrüfat uçotu işinin yerlərdə aparılmasına nəzarəti həyata keçirməkdədir.

***– Müşavirədə “Ev təsərrüfatlarının uçotu kitabı”nın proqram təminatı haqqında da söhbət açıldı, istərdik həmin proqram təminatının üstünlükləri barədə də oxucularımıza qısa məlumat verəsiniz.***

– Qeyd etmək istəyirəm ki, 2018-ci ildə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən həyata keçirilmiş islahatlar çərçivəsində ilkin olaraq kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərdə tətbiqinə başlanılmış yeni təsərrüfatbaşına uçot sənədlərinin elektronlaşdırılması məqsədilə müvafiq proqram təminatı hazırlanmışdır. 2019-cu ildə isə şəhər və qəsəbə inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə məlumatlar proqram təminatına işlənilmiş və uçot sənədləri tam elektronlaşdırılmışdır. Şəhər



və kənd yerləri üzrə təsərrüfatbaşına uçot sənədlərinin bölmələri, göstəricilər eyniləşdirilmiş və 2020-ci ildən başlayaraq şəhər və kənd yerləri üzrə təsərrüfatbaşına uçot sənədlərinin elektron məlumat bazaları birləşdirilərək vahid məlumat bazası yaradılmışdır.

“Ev təsərrüfatlarının uçotu kitabı”nın proqram təminatında seçim imkanlarının çox olması daha müfəssəl və dəqiq məlumatların əldə edilməsinə imkan yaradır. Proqram təminatının imkanlarından istifadə edərək çıxış cədvəlləri üzrə əldə olunan məlumatlar qısa müddətdə təhlil edilir və aşkar olunmuş uyğunsuzluqların aradan qaldırılması həyata keçirilir. Eyni zamanda proqram təminatında axtarış bölməsinin mövcudluğu da şəxslər üzrə sürətli axtarışın təmin olunmasına şərait yaradır. “Ev təsərrüfatlarının uçotu kitabı”nın proqram təminatının əsas üstünlüklərindən biri də hər bir təsərrüfat üzrə göstəricilərin müvafiq sistemə daxil edilən kimi ölkənin digər şəhər və rayonları üzrə avtomatik rejimdə müqayisə olunmasına, təkrarçılıq halları varsa, onların aradan qaldırılmasına imkan yaradılmasıdır.

***– Son olaraq istərdik ki, bu günədək neçə təsərrüfatın qeydə alındığını və qarşıdakı dövrdə bu sahədə daha hansı tədbirlərin həyata keçirilməsinin nəzərdə tutulduğunu öyrənək...***

– 24 yanvar 2023-cü il tarixə muxtar respublikada sorğu vərəqələri üzrə uçotu aparılmış ev təsərrüfatlarının sayı 59 min 601, sistemə işlənmiş ev təsərrüfatlarının sayı isə 35 min 907 olub. Sistemdə uçota alınmış əhali sayı 123 min 378 nəfərdir. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Ev təsərrüfatlarının sorğusu tam başa çatdıqdan sonra muxtar respublikada statistika üzrə real göstəricilər elektron informasiya sistemində öz əksini tapacaqdır.

***– Suallarımızı ətraflı cavablandırdığınız üçün sağ olun.***

**✍ Nail ƏSGƏROV**

# Muxtar respublikada sahibkarlığın inkişafına dövlət dəstəyi gücləndirilir



Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar muxtar respublikada da sahibkarlığın inkişafına yol açıb, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında və iqtisadiyyatın güclənməsində rolunu artırıb. Sahibkarlığın, xüsusilə kiçik sahibkarlığın inkişafına və əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına maliyyə dəstəyinin verilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondunun yaradılması özəl sektorun maliyyə ehtiyacının qarşılanmasına öz töhfəsini verib. Bu isə keyfiyyətli məhsul bolluğunun yaradılmasında, rəqabətədavamlı istehsal sahələrinin inkişafında və əhalinin məşğulluğunun təmin olunmasında sahibkarlıq həlledici amilə çevrilməkdədir.

Sahibkarlar Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondunun imkanlarından istifadə edir. Fondun əsas fəaliyyət istiqaməti də muxtar respublikada sahibkarlığın inkişafına maliyyə dəstəyi vermək, onlara müvəkkil banklar vasitəsilə güzəştli kreditlərin ödənilməsini təmin etmək, iş adamlarının səmərəli biznes layihələrini reallaşdırmasına yardım məqsədi daşıyır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, ötən il fond tərəfindən 96 ailə təsərrüfatına 1 milyon 441 min 100 manat maliyyə dəstəyi göstərilib. Bu dövrdə sahibkarlara 7 milyon 184 min 600 manat güzəştli kredit verilib. İl ərzində verilmiş kreditlərin iqtisadi səmərəliliyi araşdırılıb, monitorinqlər keçirilib, kreditlərin ödəmə müddətləri və vaxtında geri qaytarılması istiqamətində maarifləndirmə işləri aparılır. Bu ildən isə iqtisadiyyatın şaxələndirilməsi məqsədilə daha geniş kapitalın ayrılması planlaşdırılır.

Qeyd edək ki, fond tərəfindən yeni ailə təsərrüfatlarının yaradılmasına dəstək, onların fəaliyyətinin stimullaşdırılması və istehsal sahələrinin genişləndirilməsi məqsədilə daha geniş imkanlar yaradılacaq. Bu da muxtar respublikada sahibkarlığa daha çox maraq göstərilməsinə, investorların cəlbinə geniş şərait yaradacaq.

**Xəbərlər şöbəsi**

Ötən ilin uğurları

# 2022-ci il ali təhsil müəssisələri üçün yaddaqalan olub

*Hər bir dövlətin inkişaf göstəricisi onun təhsil səviyyəsindən birbaşa asılıdır. Bu mənada, müasirləşən, inkişaf edən muxtar respublikamızda da təhsil dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Bu gün muxtar respublikada da fəaliyyət göstərən ali təhsil müəssisələri tədris prosesini müasir tələblərə görə uyğunlaşdıran, kadr potensialının formalaşdırılmasında xüsusi rol oynayan, modernləşmə proseslərini davam etdirmək məqsədilə 2021-2022-ci tədris ilində də cidd-cəhdlə çalışıb.*



2022-ci il ölkənin qabaqcıl ali təhsil müəssisələrindən biri olan Naxçıvan Dövlət Universiteti üçün də düşərli il olub. Ötən il ərzində ali təhsil müəssisəsi istər respublikada, istərsə də beynəlxalq məkanda tələbə-müəllim heyətinin dəstəyi ilə layiqincə təmsil olunub. 2022-ci ildə universitet I beynəlxalq tibbi foruma ev sahibliyi etməklə ölkəmizdə, eyni zamanda qardaş ölkə Türkiyədə fəaliyyət göstərən universitetlərlə sıx əməkdaşlıq əlaqəsi qurub. Belə ki, bəhs olunan dövrdə ali təhsil müəssisəsi Türkiyənin Qaradəniz Texnik Universiteti, İstanbul Yeditəpə Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalamış, Ərzurum Atatürk Universiteti Xəstəxanası arasında birgə əməkdaşlığa dair müzakirələr aparmışdır. Eyni zamanda Ərzurum Atatürk və Van Yüzüncü il universitetlərinin rektorları başda olmaqla nümayəndə heyəti rəsmi işgüzar səfərdə olmuşlar. Həmçinin ölkənin öndə gələn digər universitetlərindən olan Azərbaycan Tibb Universiteti və İ.M. Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialı ilə də əməkdaşlıq etməyə başlamışdır. Ali təhsil ocağı əməkdaşlıqla yanaşı, müxtəlif ixtisaslar üzrə mütəxəssislərlə birgə universitet tələbələri üçün təlim, ustad dərsləri və vebinarlar təşkil etmişdir. Natiqlik sahəsi üzrə mütəxəssis Cəlalə Nəzəroğlu, Azusa Pasifik Universitetinin professoru Nancy M. Ackles tərəfindən Xarici dillər fakültəsinin tələbələrinə keçirilən vebinar, Azərbaycan Dillər Universitetinin professoru Çəmən Babaxanovanın vebinarı, “Microsoft” korporasiyasının Azərbaycan nümayəndəliyinin keçdiyi vebinar, Almaniyanın “Richard Volf” şirkətinin nümayəndələrinin və bir sıra tanınmış cərrahlarının iştirakı ilə keçirilən konfrans, KuCoin Kripto Birjasının Türkiyə Ambassadoru tərəfindən və Yıldız Texniki Universitetinin professoru Dilək Balık tərəfindən keçirilən vebinar elmi-təcrübi əhəmiyyətliliyi ilə yaddaqalan, tələbələr tərəfindən sevilən görüşlərdən olmuşdur. Qeyd etmək lazımdır ki, Bakı Xoreoqrafiya Akademiyasının müəllimi, Əməkdar artist Elçin Allahverdiyevin ustad dərsləri keçməsi ənənə halını almışdır.

Ötən il ərzində universitetdə müxtəlif kabinə və laboratoriyalar: Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində Sitologiya, Histologiya, Embriologiya, Anatomiya kabinələrinin, fakültə kitabxanasının və həmin fakültənin Baytarlıq təbabəti kafedrasında Patologiya kabinəsi və Mikrobiologiya və virusologiya laboratoriyası istifadəyə verilmişdir. Eyni zamanda universitet xəstəxanasında yeni Ürək və qan təzyiqi monitorinqi mərkəzi, Panoram rentgen, Allerqoloji və İmmunoloji və İnhalyasiya kabinələrinin açılışı olmuşdur.

Unutmaq olmaz ki, universitetin inkişafına birbaşa təsir edən digər bir amil müəllim heyətinin fəaliyyətidir. 2022-ci il ərzində müəllimlərin 20-dən çox kitab və dərs vəsaitinin təqdimat mərasimi keçirilmişdir.

Universitet həyatında 2022-ci ilin fərqlənməsinin digər səbəblərindən biri də burada fəaliyyət göstərən tələbə təşkilatlarının uğurlu fəaliyyətidir. Tələbələrin fəaliyyətinin dəstəklənməsi istiqamətində bəstəkar tələbələrin konserti, əl işi hazırlayan tələbələrin fərdi sərgiləri kimi stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir. Memarlıq və elektronika sahələri üzrə və origami sərgiləri yaddaqalan hadisələr sırasındadır. Eyni zamanda təhsil sahəsində magistr və IELTS imtahanına hazırlaşan tələbələr üçün pulsuz imtahan sessiyaları və xarici dildə təhsil alan tələbələrin dil biliyini yoxlama imtahanları və magistrantların nəşr olunmuş kitablarının təqdimatı keçirilib.







Əsası 2000-ci il tarixdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Fərmanı ilə qoyulmuş Naxçıvan Müəllimlər İnstitutu da muxtar respublikada müvafiq səviyyələr üzrə ali təhsil və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan ali təhsil müəssisəsidir. 2022-ci ildə institut tədris planlarının tələblərinin ödənilməsi, əmək bazarının mövcud tələblərinə uyğun kadr hazırlığının aparılması, tədris işlərinin yerinə yetirilməsi səmərəliliyinin artırılması, institutun 2022-2027-ci illər üzrə 5 illik Strateji İnkişaf Planında qarşıya qoyulmuş hədəflərin yerinə yetirilməsi məqsədilə tədris işləri sahəsində bir sıra mühüm sənədlər hazırlanmış və işlər icra olunmuşdur. Tədrisin səmərəliliyinin artırılması və tələbə əsaslı tədrisin təkmilləşdirilməsi məqsədilə konfrans, seminar, təlim və treninqlər; Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə müxtəlif mövzularda 4 günlük təlimlər keçirilmiş, institutun tədris və tərbiyə işləri üzrə prorektoru Çapay Quliyev Bakı Biznes Universitetində Erasmus+ proqramı çərçivəsində 21-25 noyabr tarixlərdə keçirilən ali təhsildə keyfiyyət təminatı üzrə beynəlxalq həftədə iştirak edib.

Dünyagörüşünün, ümumi və ixtisas biliklərinin artırılması istiqamətində tələbələrlə dərsdənkənar keçilən açıq dərslər, təlimlər, sərgilər və dərnəklərin fəaliyyəti də xüsusi diqqətə səbəb olmuşdur. Belə ki, ötən tədris ili ərzində Təsviri incəsənət müəllimliyi ixtisasının III kurs tələbəsi Tənzilə İbadovanın “Həyatımın rəngləri” adlı fərdi rəsm sərgisi, həmin ixtisasın IV kurs tələbəsi Günay Kərimovanın “Sənətin harmoniyası” adlı fərdi rəsm sərgisi, “Müasir Naxçıvan rənglərin işığında” adlı rəsm sərgisi, “Gəncliyimiz gələcəyimizdir” mövzusunda konfrans, “Mədəniyyətlərarası dialoq işığında Azərbaycan multikulturalizmi” mövzusunda dəyirmi masa bu sahədə görülən stimullaşdırıcı tədbirlər sırasında yer tutur.

Eyni ilə tələbələrin elmi-tədqiqat fəaliyyətinin təşkili məsələlərinə mütəmadi olaraq baxılmış və zəruri qərarlar qəbul edilmişdir. Bu məsələnin yerinə yetirilməsi istiqamətində “Təhsilalanların elmi-tədqiqat fəaliyyətinin təşkili vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda seminar-müzakirələr də təşkil edilmişdir.

İnstitutda tələbə-gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün müxtəlif tədbirlər təşkil olunmuş, bədii özfəaliyyət kollektivi və “Şən və hazırcavablar” klubunun, Tələbə teatr studiyasının işi genişləndirilmiş, diskussiyalar və xüsusi istedada malik olan tələbələrlə görüşlər keçirilmişdir. İnstitutda 2022-ci ildə tələbələrin asudə vaxtının düzgün təşkili üçün idman klubu tərəfindən müxtəlif səpkili idman oyunları təşkil edilmişdir.





2022-ci ildə öz işini innovativ çağırışlara cavab verən müasir təhsil strategiyasının tələblərinə uyğun qurmuş digər bir ali təhsil ocağı isə “Naxçıvan” Universiteti olmuşdur. Belə ki, 2022-ci ildə universitetin professor-müəllim və tələbə heyəti elmi, ictimai və sosial həyatda aktivlik göstərmiş, bir çox layihələrin icrasında yaxından iştirak etmişdir. Müəllimlərin ixtisasartırma kurslarına cəlbi, yeni təlim metodlarından istifadə qarşıya qoyulmuş əsas istiqamətlərdəndir. Ötən il universitetin həyatında mühüm məqamlardan biri də “Naxçıvan” Universitetinin Avropa, Asiya, Yaxın Şərq, Afrika, Sakit Okean regionlarında fəaliyyət göstərən müxtəlif universitetlərin nümayəndələri arasında elmi-texniki, iqtisadi və mədəni əməkdaşlığın qurulması və mövcud əməkdaşlığın genişləndirilməsi istiqamətində geniş müzakirələr və fikir mübadiləsi aparması olmuşdur. Eyni zamanda elmi sahədə də ciddi irəliləyişlər əldə edilmişdir. Ali təhsil ocağı “Naxçıvan Muxtar Respublikasında sənayenin diversifikasiyası beynəlxalq iqtisadi inteqrasiya amili kimi”, “Beynəlxalq İpək Yolu və Naxçıvan” və “Beynəlxalq Şərq konfransı” kimi beynəlxalq konfranslarda, “Naxçıvan Muxtar Respublikasının gələcək iqtisadi inkişaf və prioritetləri” kimi regional konfranslarda da yaxından iştirak etməyə nail olmuşdur. Bundan başqa, universitet əməkdaşlarının dünyanın nüfuzlu elmi jurnallarda çıxışları qarşıya qoyulan əsas istiqamətlərdəndir. Müasir dövrün tələblərinə uyğun olaraq 2021-2022-ci tədris ilində “Naxçıvan” Universitetində də STEAM layihəsi çərçivəsində eyniadlı mərkəz yaradılmışdır. Bu mərkəzin yaradılması aid ixtisaslarda tələbələrin nəzəri biliklərinin müasir təcrübi metodlarla daha da möhkəmləndirilməsinə, həmçinin müasir çağırışlara cavab verən yeni innovativ üsulların öyrənilməsinə xidmət edir. Görülən işlərin nəticəsidir ki, Naxçıvan şəhərində keçirilən “STEAM təhsil festivalı”nda universitetin komandaları II və III yerlərin qalibi oldular. “Naxçıvan” Universitetinin STEAM komandasının təqdim etdiyi layihələr festivalda “Yaşıl texnologiyalar” nominasiyası üzrə II, “Sosial texnologiyalar” nominasiyası üzrə isə III yerə layiq görülüb.

*Ali təhsil ocaqları qazandıqları uğurlarla bərabər Ümummilli Lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin gənclər arasında geniş təbliğ edilməsində, onların vətənpərvər ruhda formalaşmasında mühüm rol oynamışlar. Əminik ki, bundan sonrakı illərdə də bu amalla çıxdıqları yolda möhkəm addımlarla irəliləyəcəklər.*

**Bülbül QULİYEVA**
**Aysel YUSİFZADƏ**

## “Naxçıvan” Universitetinin daha bir uğuru




Ali təhsil ocağının müəllim və tələbələrinin məqalələrinin nüfuzlu jurnallarda dərc olunması qazanılan mühüm elmi nailiyyətlərdəndir. “Naxçıvan” Universitetinin müəllimi Şamil Hümbətov və ali təhsil ocağının Kompüter mühəndisliyi ixtisası üzrə III kurs tələbəsi Fərhad Heydərovun “Eyetracker as a new research tool” (“Göz izləyicisi yeni tədqiqat vasitəsi kimi”) adlı məqaləsi Jomard Publishing nəşriyyatının nəşr etdiyi Journal of Modern Technology and Engineering jurnalında dərc olunub.

Qeyd edək ki, sözügedən jurnal müasir texnologiya və mühəndislik sahələri üzrə orijinal tədqiqatlar, araşdırmalar, icmal məqalələr dərc edir. Bütün çap edilən məqalələr ciddi rəydən keçirilir. Jurnal dünyanın hər yerindən olan müasir texnologiya və mühəndis həllərinə həsr olunmuş ən yeni nəticələri əhatə edir. Bu məqalələr jurnalın geniş oxucu kütləsinə texnologiyalar və müxtəlif mühəndis problemlərinin həll üsulları sahəsində ən son nəticələrdən xəbərdar olmağa kömək edir.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən 2022-ci ilin dekabr ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqləri davam etdirilib, 4 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub.*

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir

Operativ vergi nəzarəti tədbirləri zamanı 1 vergiödəyicisi tərəfindən əhali ilə pul hesablaşmalarının aparılması qaydalarının pozulması, 1 vergiödəyicisində “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşınması, 2 vergiödəyicisində isə aksiz markaları ilə markalanmalı olan malların markalanmadan satılması faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

Gəlin açıq danışaq

## Bəzi dərman vasitələri tapılmır, qiymət fərqi yaşanır

Havaların soyuması ilə əlaqədar, eləcə də müxtəlif xəstəliklərə görə əczaxanalara müraciət edən vətəndaşların sayı artıb. Muxtar respublikada çox sayda əczaxana fəaliyyət göstərsə də, çox vaxt sakinlər axtardıqları dərman vasitəsini ya tapa, ya da ki dərmanın qiymətinin digər şəhərlərimizlə müqayisədə baha olması ilə əlaqədar ala bilmirlər. Məcbur qalıb ya həmin dərmanın əvəzləyicisini alır, ya da öz qohum-əqrəbasından



başqa ölkələrdən və ya paytaxt şəhərimiz Bakıdan alıb göndərmələrini xahiş edirlər. Bu gün Naxçıvan sakinlərini maraqlandıran məsələlərdən biri də əczaxanalarda dərman vasitələrinin qiymətlərindəki fərq, axtarılan dərman vasitələrinin tapılmaması, dərmanların keyfiyyəti ilə bağlıdır. Bəs bütün bunlara səbəb nədir?

Məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əczaçılıq və özəl tibb müəssisələri sektorunun müdiri ***Hacı Əliyev***lə həmsöhbət olduq. O bildirdi ki, əvvəllər muxtar respublikada bütün əczaxanalara dərmanları "Nəqşicahan MED" Məhdud Məsuliyyətli Cəmiyyəti və "AKİ Əczaçılıq Anbarı" verirdi. Əczaxanaların hamısı dərmanı məcburən onların təyin etdiyi qiymətə almalı və onların təyin etdiyi qiymətə də satmalı idi.



Bir sözlə, Tarif Şurasının müəyyənləşdirdiyi qiymətlər burada işləmirdi. Muxtar respublikada fəaliyyət göstərən əczaxanalara heç biri, fiziki və ya hüquqi şəxs sahibkarlar Bakıdan dərman preparatları gətirə bilmirdilər. 2023-cü ilin yanvar ayından etibarən bütün əczaxanalar dərmanları Bakıdan gətirə bilir və Tarif Şurasının qiymətləri artıq burada da işləməyə başlayıb. "Nəqşicahan MED"dən də satışa çıxarmaq üçün dərmanlar götürülür.

Naxçıvanda bəzi dərman vasitələrinin tapılmaması ilə bağlı sualımıza isə Hacı həkim belə cavab verdi: – Son aylarda Naxçıvanda dərman təminatı problemini qaydaya salmağa çalışırıq. Lakin elə dərmanlar var ki, bu nəinki Naxçıvanda, Bakıda, eləcə də xaricdə də tapılmır. Yəni dərman qıtlığı bu gün hər bir ölkənin probleminə çevrilib. Əsasən, ilin əvvəlində bu problemlər yaşanır. Mümkün deyil ki, həmişə istədiyin tapa biləsən, hər gün yeni dərman preparatları istehsal olunur, birin tapanda, birini tapa bilmirsən. Sinir sisteminin müalicəsində istifadə edilən "Fenobarbital", "Gabapentin" kimi dərmanlar heç Bakıda da tapılmır.

Hacı həkim bildirdi ki, əczaxana sahibkarları İrandan, Türkiyədən dərman idxal edə bilmirlər, çünki mal qeydiyyata düşməlidir, amma Bakıdakı depolardan şəxsi, pərakəndə satış üçün istənilən dərmanı gətirə bilirlər. Bu zaman qiymət də aşağı düşür, eyni zamanda istənilən dərmanı tapmaq asanlaşır. Onu da qeyd edim ki, dərman qiymətləri ilə bağlı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi belə səlahiyyətə sahib deyil. Buna İqtisadiyyat Nazirliyi, Tarif Şurası və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti baxır. Yalnız təminat məsələsinə Səhiyyə Nazirliyi cavabdehdir. Həmçinin Naxçıvanda daxil olan dərman vasitələrinin qeydiyyatı, dərman vasitələrinin idxalına icazənin verilməsi, əczaxana şəbəkəsində dərman vasitələri dövriyyəsinin və təhlükəsizliyinin, qiymətlərin tənzimlənməsi ilə bağlı bir mərkəz, çox təəssüf ki, yoxdur, onun üçün də bu məsələdə ciddi problemlər mövcuddur, lakin sırf bizim öhdəliyimizdə deyil.

Müsahibim dərmanların keyfiyyəti ilə bağlı dedi: – Naxçıvanda dərmanların keyfiyyətinə nəzarət həyata keçirilə bilmir. Nəyə görə? Çünki bu məsələ Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Əsasnaməsində yoxdur. Buna cavabdeh Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan qurumlardır. Biz dərmanların yalnız saxlanılma şəraitinə nəzarət edirik. Bütün əczaxanalarda temperaturu və rütubəti ölçən cihazlar quraşdırılıb. Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq bu məsələlərə nəzarət edirik, lakin keyfiyyət barədə heç nə deyə bilmirik. Bununla bağlı Naxçıvanda hər hansı bir qurum, laboratoriya yaradılmayıb.

Hacı Əliyevin söylədiyi fikirlərə əsasən vəziyyəti yerində öyrənmək üçün əczaxanaların bir neçəsinə yollandıq. Naxçıvan şəhərində fəaliyyət göstərən "Səhhət" əczaxanasının əczaçısı ***Arif İsmayılov*** qeyd etdi ki, hazırda Bakıdan dərman gətirə bilirlər. Lakin uşaqlar üçün iltihab əleyhinə, qızdırma salıcı dərmanlar – "Nurofen", "İbufen", "Bifidumbakterin" və



sair dərmanlar tapılmır, ya da azlıq təşkil edir.

"Aptek 50 Şəfalı"nın əczaçısı ***İlyas İbrahimov*** da bildirdi ki, bu ayın əvvəlindən Bakıdan dərman gətirə bilirlər. Uşaqlar, astma və şəkər xəstələri üçün dərman qıtlığı yaşanır: – Əvvəl bunları Türkiyədən gətirirdik, oranın istehsalı olduğu üçün ucuz qiymətə də satılırdı. Hazırda Bakıdan gətirilən bu cür dərmanlar İsveçrə və digər xarici ölkələrin istehsalıdır deyə ikiqat baha qiymətə satılır. Apteklərdə müştəriyə əlavə dəyər vergisi (ƏDV) çeklərinin verilməsi ilə bağlı sualımıza əczaçı bu məqsədlə yeni nəsil kassa aparatlarının quraşdırılacağını, yalnız bundan sonra tətbiq olunacağını dedi.

"Şəhər Aptek Med"in işçisi ***Hikmət Şəkərəliyev*** isə qeyd etdi ki, hazırda "Nəqşicahan Med"lə işləyirlər. Lakin əvvəlkindən fərqli olaraq indi dərmanlar Tarif Şurasının tənzimlədiyi qiymətlərə əsasən alıcılara təqdim olunur. İndi daha çox Naxçıvana Bakıdan gəlmiş həkimlərin xəstələrə yazdığı dərmanlar, bəzi sirop və suspenziyalar satışda tapılmır.

Biz də ictimai rəy yaradan, sakinləri düşündürən növbəti mövzunu araşdırmağa çalışdıq, güman edirik ki, səlahiyyətli qurumlar dərmanların qiymətləri və satışının təşkili ilə bağlı bir ölçü götürəcəklər. Ölkəmizdə aparılan uğurlu sosial-iqtisadi siyasətin əsas hədəfi də əhalinin rifah halının davamlı olaraq yaxşılaşdırılmasıdır. Dərman vasitələri bazarında şəffaflığın təmin edilməsi, süni qiymət artımının qarşısının alınması, dərman vasitələrinin bütün əczaxanalarda eyni qiymətə satılması və sakinlərin ucuz əczaxana axtarmaq zərurətinin aradan qaldırılması kimi məsələlər, bu mənada, əsas amillərdir. Əczaxanalarda ƏDV-nin tətbiqinə gəldikdə isə 2020-ci ilin may ayından Azərbaycanda pərakəndə ticarət və ictimai iaşə obyektlərindən alınmış mallara görə ödənilən ƏDV-nin bir hissəsinin geri qaytarılması mexanizmi tətbiq edilir. Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən 2023-cü il 1 yanvar tarixindən istehlakçılara geri qaytarılan ƏDV-nin məbləği nağdsız əməliyyatlar üzrə 15 faizdən 17,5 faizə qaldırılıb, nağd əməliyyatlara görə isə 10 faizdən 5 faizə endirilib.Vergi Məcəlləsinin 58.7-ci maddəsinə əsasən nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən əhali ilə pul hesablaşmalarının aparılmasına, alıcıya təqdim edilməli çekin verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə görə vergiödəyicisinə maliyyə sanksiyası tətbiq edilir. Ümid edirik ki, yaxın vaxtlarda muxtar respublika əczaxanalarında dediyimiz məsələlər üzrə tənzimləmələr aparılacaq, sakinləri narahat edən məsələlər öz həllini tapacaqdır.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*Yurdumuzun paytaxtı qədim Naxçıvan şəhərinin gözəlliyi, tarixi və müasirliyi buraya üz tutan qonaqları həmişə valeh edib. Elə mən də gün ərzində bir neçə dəfə iş otağımın pəncərəsindən bu gözəlliyi seyr edirəm. Yeni təmir olunmuş binaların gözoxşayan görünüşü, işıqlı, təmiz küçələri insanın ürəyini qürur hissi ilə doldurur. Amma, təəssüflər olsun ki, bəzən bu gözəlliklərin içərisindən göbələk kimi boylanan unudulmuş, yaddan çıxmış yaşayış binalarına da rast gəlirik.*

## Gözümüz yollarda qaldı, ay tikinti idarəsi



Məsələn, elə götürək redaksiyamızın lap yaxınlığında yerləşən "İstiqlal" küçəsindəki 71-ci binanı. Nədəndir, bilmirəm, amma həmin ərazidə yerləşən çoxmənzilli yaşayış binalarının, demək olar ki, hamısı təmir olunsa da, bu yaşayış binası gözmuncuğu kimi ortada qalıb. Binanın fasadının, dam örtüyünün sıradan çıxmasına baxmayaraq, nədənsə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yolunu bu tərəfə salmayıb. Və bəlkə də, salmaq istəməyib. Bu çoxmənzilli yaşayış binasının sakinləri də bu vəziyyətdən narazıdırlar. Bir neçə sakin problemi dilə gətirərək bildirdi ki, kimsə bu vəziyyəti düzəltməyə səy göstərməyib. Onlar da kimə üz tutub söz deyəcəklərini bilmədikləri üçün neçə ildir, bu problemin həll olmasını səbirsizliklə gözləyirlər. Yaddan çıxmış, ya da ki müasir binaların arasında gizlədilmiş bu binanın sakinləri qarşı binadakı qonşularına baxıb köks ötürməkdən təngə gəliblər artıq. Sakinlərdən yaşı 70-i ötmüş ***Məstan nənə*** ilə söhbətimizdə bildirdi ki, binanın təkcə fasadı, dam örtüyü bərbad olsa, yenə ötüşərik. Amma pilləkənlər o qədər bərbad günə düşüb ki, yuxarı qalxıb-enəndə hər an yıxılmaq təhlükəsi ilə üz-üzə qalırıq. Yaşlı insanlar evdən bayıra çıxmağa tərəddüd edir. Və beləcə, gözümüz yolda qalır, gözləyirik, görən nə vaxt bizim də binanın üzünə gün doğacaq.

Onu da deyim ki, gözü yollarda qalan təkcə bu binanın sakinləri deyil. Naxçıvan şəhəri, Atabəylər məhəlləsində yerləşən 7, 8, 9 nömrəli çoxmənzilli yaşayış binalarının da sakinlərinin gözü yoldadır. 7 nömrəli yaşayış binasının sakini ***Validə Səfərova*** 50 ilə yaxındır ki, bu binada yaşayır. Deyir ki, yaşadığı üçotaqlı mənzil ailəsinə Ulu Öndərin tapşırığı ilə 1978-ci ildə hədiyyə edilib. Müsahibim bildirir ki, ətraflarında yerləşən binaların bir çoxu təmir edilsə də, bir neçəsi inşaatçıların yolunu gözləyir. Ötən il ətrafdakı binalardan biri, hazırda isə yol kənarında gözə dəyən bina təmir edilir. Bizim binalar isə həmin bəzəkli-düzəkli binaların əhatəsində miskin görkəmi ilə "diqqəti çəkir".

Şəhər sakinlərinin dərdini dinlədikcə, necə deyərlər, öz yaşadığım binanın da dərdli sakinlərinin sözlərini dilə gətirmək zərurəti hiss edirəm. Bizim bina şəhərdə ilk təmir edilən binalardandır. Amma necə "gözəl" təmir edildiyini hələ indi görürük. Vaxtilə yararsız tikinti materialları ilə təmir edilən binanın yenidən qurulması zamanı binaya penoplast üzlüklərlə "bəzədilib" ki, bu da binanı yaşamaq üçün qorxulu vəziyyətə gətirib. Qışda soyuğu, yayda istini özünə çəkən penoplast üzlüklər





tezalışan olduğu üçün texnogen qəzalar baş verəcəyi təqdirdə əsl təhlükə mənbəyidir. Mənzillərin havalandırılmasına da ciddi problem yaradan bu üzlüklərin arasına yayda dolub uşaqları qorxudan və belə, həqiqətən də, insan sağlamlığı üçün təhlükə sayıla biləcək kərtənkələ və əqrəbləri demirəm. Yayda kəskin istilər olanda binanı əhatə edən plastik örtüyün altından çıxan əqrəbin, ya da ki kiçik bir qığılcımın qurbanı olacaqlarını düşünən bina sakinləri gecələri qorxa-qorxa yuxuya gedirlər.

Bütün bu müşahidə etdiklərimizə, həmsöhbət olduğumuz insanlardan dinlədiklərimizə aydınlıq gətirmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə üz tutmağı da hamıya məlum səbəblərə görə ehtiyac bilmədik. Ümid edirik ki, ölkə başçımızın rəhbərliyi və siyasi iradəsi ilə muxtar respublikada həyata keçirilən ciddi islahatlar, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi tərəfindən mövcud nöqsanların aradan qaldırılması istiqamətində atılan ciddi addımlar bu problemin də qısa zamanda həll olunmasına rəvac verəcək.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Elan

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində işə qəbulla bağlı müsahibə elan edir. Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində vakant terapevt, stomatoloq, ginekoloq, dermatoveneroloq, ultrasəslə müayinə, narkoloq, psixiatr vəzifələri üzrə həkim mütəxəssislərlə, həmçinin kiçik və orta rəis heyəti vəzifələri üzrə qadın namizədlərlə müsahibənin keçirilməsi nəzərdə tutulmuşdur.

Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində qulluğa qəbul olunmaq istəyən namizədlər müvafiq olaraq tam orta, orta ixtisas və ya ali təhsilə malik olmalıdır. Yaşı 20-dən aşağı olmayan 30 yaşınadək Azərbaycan Respublikasının vətəndaşları qulluğa qəbul edilir.

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, tibbi rəyə əsasən fiziki və ya əqli qüsurlarına görə işləməyə qadir olmayan, qanunla müəyyən edilmiş həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar, məhkəmə, prokurorluq, ədliyyə, digər hüquq-mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər işə qəbul edilmirlər.

Sənəd qəbulu Naxçıvan şəhəri, İslam Səfərli küçəsi 1 ünvanında yerləşən Ədliyyə Nazirliyinin inzibati binasında 1 fevral 2023-cü il tarixdən 1 aprel 2023-cü il tarixədək nəzərdə tutulmuşdur.

***Əlaqə nömrəsi: (036) 545-00-69***

* * *

Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsi dəftərxana ləvazimatlarının alınmasında və avtomaşınlara göstəriləcək təmir və sair işlərin görülməsində kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

İdarəyə aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Göstəriləcək iş və xidmətlərə dair məlumat.*

***Əlaqə telefonu: (036) 545-35-21***

***Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsi***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 60